**AUDİT 2024, 4 (46), səh. 138-143.**
**AUDIT 2024, 4 (46), pp. 138-143.**
**АУДИТ 2024, 4 (46), стр. 138-143.**

**DOI: 10.59610/bbu4.2024.4.13**

*Cavadov Anar İlyas oğlu,*
*hüquq üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin "Cinayət hüququ və kriminologiya" kafedrasının elmlər doktoru proqramı üzrə doktorantı,*
*Bakı Biznes Universitetinin müəllimi,*
*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil*
*E-mail: vekil_anar@mail.ru*
*© Cavadov A.İ., 2024*

**UOT: 343.85**
**JEL: K14**

# CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB EDİLMƏ YAŞINA ÇATMAMIŞ YETKİNLİK YAŞINA ÇATMAYANLARIN MƏSULİYYƏT İNSTİTUTUNUN GENEZİSİ

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi** – cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanlar tərəfindən yol verilmiş hüquq pozuntularının müəyyən edilərək, aradan qaldırılması üçün qabaqlayıcı tədbirlərin görülməsi.

**Tədqiqatın metodologiyası** – cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların məsuliyyətinin yaranmasının mənşəyinin ***(genezisi)*** tədqiq olunmasında, onların mənəvi-psixoloji inkişaf səviyyəsinin davranışlarına göstərdiyi təsirlərin tədqiq və təhlil olunması.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb edilməsi hallarının aşkar olunaraq, qarşısının alınması üçün zəruri tədbirlərin görülməsi.

**Tədqiqatın nəticələri** – cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanlar tərəfindən yol verilmiş hüquq pozuntularının profilaktikasının işlənib hazırlanması.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların məsuliyyətinin yaranmasının ***genezisinin*** müəyyən olunması baxımından, bu şəxslərin məsuliyyətinin müəyyən olunmasında onların öz əməllərini nə dərəcədə dərk etmələrinin araşdırılması.

**Açar sözlər:** cinayət, genezis, təqsir, motiv, məqsəd.

## G İ R İ Ş

Sosial varlıq olan insanın cəmiyyətdəki davranışının ölçüləri müxtəlif amillərin təsirindən asılı olaraq özünü büruzə verir. Bu amillərdən əxlaq, hüquq, dini və s. münasibətləri nizama salan normaların təsirini qeyd etmək olar. Digər normalardan fərqli olaraq hüquq normaları dövlət məcburiyyəti ilə təmin olunmasına ehtiyacı olan ictimai münasibətlərin qorunmasına yönəlmişdir. Hüquq normalarının pozulmasında təqsirli olan şəxslərə tətbiq edilən dövlət məcburiyyəti hüquqi məsuliyyətin özünün müxtəlif formalarında ifadə olunur. Ən yük-

**AUDİT 2024, 4 (46), səh. 138-143.**
**AUDIT 2024, 4 (46), pp. 138-143.**
**АУДИТ 2024, 4 (46), стр. 138-143.**

sək ictimai təhlükəlilik dərəcəsinə görə dövlət tərəfindən cəza təyin olunması ilə müşaiyət olunan məsuliyyət növü, cinayət məsuliyyətidir. Cinayət məsuliyyətinin yaranmasının ***genezisini*** isə bu məsuliyyət növü üçün cinayət qanununda nəzərdə tutulmuş şərtlər təşkil edir. Həmin şərtlərdən biri və ən birincisi şəxsin müəyyən yaş həddinə çatması təşkil edir ki, yalnız bu halda şəxs cinayətin subyekti sayıla bilər.

Başqa sözlə cinayətin subyekti dedikdə, cinayət törətdiyi zaman qanunla müəyyən edilən yaş həddinə çatan şəxs hesab olunur. Cinayət qanunvericiliyi yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə cəlb edilməsi üçün bu yaş həddini cinayət törədənədək 16 yaşı tamam olmuş şəxs kimi müəyyən edir. Bununla yanaşı yetkinlik yaşına çatmayanların törətdikləri əməllərin ictimai təhlükəliliyini, onun xarakter və mahiyyətini dərk etmələrini nəzərə alaraq qanun, bu şəxslər üçün məhdud qaydada daha erkən yaş həddi müəyyən etməklə də bu qaydalardan istisnaya yol vermişdir. Bu halda da, qanunvericilik 14 yaşından 16 yaşına qədər şəxslərin törədə biləcəkləri cinayətlərin konkret dairəsini müəyyən etmişdir. CM-nin 20.2-ci maddəsinə görə, 14 yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir. Qanunvericiliyin bu tələbindən görünür ki, 14 yaşından 16 yaşına qədər yetkinlik yaşına çatmayanlar yalnız qəsdən törədilən cinayətlərə görə məsuliyyət daşıyırlar. Bununla belə, bir sıra cinayətlərə görə cinayət məsuliyyəti isə, şəxs – yalnız 18 yaşa çatdıqda əmələ gəlir. Məsələn, hərbi xidmət keçməkdən boyun qaçırma və s.

**Tədqiqatın əsas məzmunu**

Qeyd olunanlardan aydın olur ki, şəxsin cinayət məsuliyyəti daşıması üçün, onun qanunla müəyyən edilən yaş həddinə çatması tələb olunur. Lakin bəzən müəyyən ictimai təhlükəlilik dərəcəsinə, hətta cinayət hesab edilən əməlin törədilməsində təqsirləndirilə bilmək həddində olan, lakin belə məsuliyyətə cəlb olunması üçün qanunla müəyyən olunmuş yaş həddinə çatmamış şəxslər tərəfindən də cinayət xarakterli əməllərin törədilməsinə rast gəlinir. Bəs bu halda həmin şəxsləri belə əməllərin törədilməsinə təhrik edən amil özünü nədə göstərir. Ümumiyyətlə yaş həddinə çatma anlayışı nisbi xarakter daşıyır. Cinayət məsuliyyəti yaradan yaş həddi konkret olsa da, həmin yaş tarixinin tamam olmasından bir müddət əvvəlki dövrdə də, onun mənəvi-psixoloji durumunun həmin şəxsin davranışında təsirsiz olmadığını görmək olur. Cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların məsuliyyətinin yaranmasının mənşəyi ***(genezisi)*** də onların artıq mənsub olduqları mənəvi-psixoloji inkişaf səviyyəsinin onların davranışına göstərdiyi təsirlərlə müəyyən olunur. Bu şəxslərin məsuliyyətinin yaranması ***genezisinin*** müəyyənləşməsi üçün həm də, cinayət məsuliyyətinin əsasını təşkil edən və əməlin cinayət tərkibini yaradan cəhətlərdən biri kimi – cinayətin subyektiv cəhəti baxımından yanaşılmanı da zəruri edir. Belə ki, cinayət tərkibinin subyektiv cəhəti – əqli, iradi və motivasiya *(motivlərin formalaşması və inkişaf prosesi)* proseslərinin üzvü vəhdətindən ibarət olub, cinayətin törədilməsi ilə bilavasitə əlaqədar olan şəx-

**AUDİT 2024, 4 (46), səh. 138-143.**
**AUDIT 2024, 4 (46), pp. 138-143.**
**АУДИТ 2024, 4 (46), стр. 138-143.**

sin psixi fəaliyyətidir. Bu fəaliyyət təqsir, motiv və məqsəd kimi cinayətin subyektiv cəhətini xarakterizə edən hüquqi əlamətlərlə xarakterizə olunur. Şəxsin təqsiri onun törətmiş olduğu ictimai-təhlükəli əmələ qəsd və yaxud ehtiyatsızlıq formasında ifadə olunan psixi münasibətidir. Bu cinayətin subyektiv cəhətinin vacib əlaməti olmaqla, məsuliyyətin yaranmasının əsas şərtidir. Əməlin motivi isə şəxsin cinayət törətdiyi zaman rəhbər tutduğu, dərk olunmuş daxili arzusunun şərtləndirilmiş tələbatı və maraqlarıdır. Şəxsin məqsədi də onun cinayət törətdiyi zaman gələcək nəticənin əldə edilməsi üçün göstərdiyi cəhdin təfəkkür modelidir.

Yetkinlik yaşına çatmayanların tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməklə cinayət məsuliyyətindən azad edilməsini eyni tədbirlər tətbiq edilməklə cəzadan azad edilməsindən fərqləndirmək üçün ilk növbədə cinayətin törədilməsinin göstərilməsi vacibdir (1, s. 180). Cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların davranışında bu əlamətlər özünü fərqli göstərir. Bu koteqoriyadan olan şəxslər malik olduqları *(çatmış olduqları)* psixi vəziyyətində səviyyəsi törətmiş olduqları ictimai-təhlükəli əmələ olan münasibətdə, həmin əməli qəsd və yaxud ehtiyatsızlıqdan törətdiyini tam dərk edə bilmirlər. Onların əməlində cinayət niyyətini özündə ifadə edən motiv mövcud olmur. Bu yalnız ona kənar təsirlərin olması halında mümkün olur. Belə əməllərə yol vermiş şəxslərin məqsədini isə, onun mənsub olduğu yaş həddinin məişət tələbatına uyğun olaraq çatmaq istədiyi nəticəni əldə etmək istəyi təşkil edir.

Cinayəti törətmiş şəxsin yetkinlik yaşına çatmaması cinayət məsuliyyətinin hədlərini xeyli azaldır (2, s. 56). Həmçinin, cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların məsuliyyətinin yaranmasının ***genezisinin*** müəyyən olunması baxımından, bu şəxslərin məsuliyyətinin müəyyən olunmasında, onların öz əməllərini nə dərəcədə dərk etmələrinin araşdırılması da mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, təqsir əqli və iradi elementləri özündə əks etdirən psixoloji məzmuna malikdir. Təqsirin əqli elementi iki amillə xarakterizə olunur: əməlin ictimai-təhlükəli xarakterinin dərk edilməsi və onun ictimai-təhlükəli nəticələrinin qabaqcadan görülməsi. İradi element cinayətin subyektinin psixikasında baş verən iradəvi proseslərlə xarakterizə olunur: şəxs ictimai-təhlükəli nəticələrin baş verməsini arzu edir və ya şüurlu surətdə onlara yol verir, yaxud da ictimai-təhlükəli nəticələrin qarşısının alınmasına yüngül fikirliliklə ümid bağlayır. Cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların davranışında bu əlamətlər hələ tam formalaşmış şəkildə özünü büruzə vermədiyinə görə onların məsuliyyətə cəlb olunmaları istisna olunur. Hüquq-mühafizə praktikasında yetkinlik yaşına çatmayanlara qarşı cəza məqsədlərinin həyata keçirilməsi qanunla nəzərdə tutulmuş cəzaların siyahısından istifadə etməklə həyata keçirilir (3, s. 58). Belə ki, cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların müxtəlif yaş dövrlərinə uyğun olaraq psixikasında baş verən əqli və iradi proseslərin intensivliyi və məzmunundakı fərqlər onların təqsirli olmasını istisna edir. Təqsirlilik dedikdə, şəxsin psixikasında baş verən və onun, cinayətin obyektiv xüsusiyyətlərinə münasibətini aşkara çıxaran əqli və iradi proseslərin əlaqələndirilmiş anlayışı başa düşülür. Bu kateqoriyadan olan şəxslərdə isə əqli və iradi proseslər hələ məsuliyyət yarada bilən həddə tam formalaşmış olmur.

Hələ yetkinlik yaşına çatmayan uşaqlara qarşı məsuliyyətin tətbiqi ilə əlaqədar bu halda törədilmiş cinayət əməlinin ağırlığına diqqət yetirilməlidir (4, s. 471). Bundan başqa, hazırda qüvvədə olan *"Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında"* 24 may 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə də

**AUDİT 2024, 4 (46), səh. 138-143.**
**AUDIT 2024, 4 (46), pp. 138-143.**
**АУДИТ 2024, 4 (46), стр. 138-143.**

yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası ilə əlaqədar yaranan ictimai münasibətlər tənzimlənir və həmçinin qanunla bu sahədə dövlət orqanlarının, müəssisələrin və təşkilatların hüquq və vəzifələri müəyyən olunmuşdur.

Qanunun 3-cü maddəsində yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikasının əsas vəzifələri müəyyən olunmuşdur.

Həmin maddəyə əsasən, …

*1) yetkinlik yaşına çatmayanların baxımsızlığının, kimsəsizliyinin və hüquq pozuntularının qarşısını almaq, bunların yaranmasına imkan verən səbəb və halları aradan qaldırmaq; yetkinlik yaşına çatmayanların hüquqlarını və qanuni mənafelərini qorumaq;*

*2) sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların sosial-pedaqoji reabilitasiyasını təmin etmək; yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb edilməsi hallarını aşkar etmək və aradan qaldırmaq;*

*3) yetkinlik yaşına çatmayanlar tərəfindən alkoqollu içkilərin, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş və ya həkimin təyinatı olmadan narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsi hallarını aşkar etmək və aradan qaldırmaq;*

… kimi müəyyən olunmuşdur.

Həmin qanunun 4-cü maddəsində isə yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikasını həyata keçirən orqan və müəssisələrin dairəsi müəyyən olunmuşdur. Buraya yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, əhalinin sosial müdafiəsi, təhsil, qəyyumluq və himayə, səhiyyə, daxili işlər orqanları, habelə gənclərin işləri üzrə orqanlar daxildir. Eyni zamanda yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası üzrə fəaliyyətdə digər orqan, müəssisə və təşkilatların, cümlədən qeyri-hökumət təşkilatlarının iştirakı qanunvericiliklə müəyyən edilmiş qaydada həmin orqanların səlahiyyətləri çərçivəsində həyata keçirilir.

## YEKUN

Bununla da, *"**Cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların məsuliyyət institutunun genezisi**"* mövzusunda yuxarıdakı şərh edilənləri əsas tutaraq, aşağıdakı qabaqlayıcı tədbirlərin görülməsini zəruri hesab edirik:

1. Cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanlar tərəfindən hüquq pozuntularına yol verilməsinə imkan verən səbəb və hallar vaxtında müəyyən edilərək, aradan qaldırılması üçün qabaqlayıcı tədbirlər görülməlidir.
2. Cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların hüquqlarının və qanuni mənafelərinin vaxtında qorunması təmin olunmalıdır.
3. Cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb edilməsi halları aşkar olunaraq, aradan qaldırılması üçün zəruri tədbirlər görülməlidir.
4. Cinayət məsuliyyətinə cəlb edilmə yaşına çatmamış yetkinlik yaşına çatmayanlar tərəfindən alkoqollu içkilərin, narkotik vasitələrin və psixotrop maddələrin qəbul edilməsi halları aşkar edilərək, aradan qaldırılması təmin olunmalıdır.

**AUDİT 2024, 4 (46), səh. 138-143.**
**AUDIT 2024, 4 (46), pp. 138-143.**
**АУДИТ 2024, 4 (46), стр. 138-143.**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYAT SİYAHISI:

1. Уголовная ответственность несовершеннолетних по УК РФ и УК Азербайджанской Республики: сравнительная характеристика. М.Н.Иманлы - Актуальные проблемы российского права №4 (101), 2019.

2. Особенности уголовной ответственности и наказания несовершеннолетних - И.В.Пикин, И.А.Тараканов, С.А.Пичугин / Крымский научный вестник, №1 (22), 2019.

3. Вопросы уголовного, уголовно-исполнительного права и криминологии - Ю.В.Загайнова, М.А.Сутурин, В.А.Терентьева / Сибирский юридический вестник, №1 (84) 2019.

4. Criminal Responsibility of Children Who Commit the Crime - Jufnidar, Niru Anita Sinaga, Sujono / International Journal of Science and Society, Volume 5, Issue 1, 2023.

*Anar Ilyas Javadov,*
*Ph.D. (Law),*
*doctor of science student (Law) at Baku State University,*
*teacher at Baku Business University,*
*Member of the Bar Association of the Republic of Azerbaijan, Advocate*
*E-mail: vekil_anar@mail.ru*
*© A.I. Javadov, 2024*

# GENESIS OF THE INSTITUTE OF LIABILITY OF JUVENILES WHO HAVE NOT REACHED THE AGE OF CRIMINAL LIABILITY

## A B S T R A C T

**The purpose of the research** – identifying and taking preventive measures to eliminate legal violations committed by minors who have not reached the age of criminal responsibility.

**The methodology of the research** – in studying the origins of the emergence of responsibility among minors who have not reached the age of criminal responsibility, research and analysis of the effects of their level of moral and psychological development on their behavior.

**The practical importance of the research** – taking necessary measures to detect and prevent cases of involvement in criminal activities of minors who have not reached the age of criminal responsibility.

**The results of the research** – development of prevention of legal offenses committed by minors who have not reached the age of criminal responsibility.

**The originality and scientific novelty of the research** – in terms of determining the genesis of the emergence of responsibility of minors who have not reached the age of criminal responsibility, investigating the extent to which these individuals understand their actions in determining their responsibility.

**Keywords:** crime, genesis, guilt, motive, purpose.

**AUDİT 2024, 4 (46), səh. 138-143.**
**AUDIT 2024, 4 (46), pp. 138-143.**
**АУДИТ 2024, 4 (46), стр. 138-143.**

*Джавадов Анар Ильяс оглы,*
*доктор философии по праву,*
*докторант Бакинского Государственного Университета,*
*преподаватель*
*Бакинского Университета Бизнеса,*
*Член Коллегии Адвокатов Азербайджанской*
*Республики, адвокат,*
*E-mail: vekil_anar@mail.ru,*
*© Джавадов А.И., 2024*

## ГЕНЕЗИС ИНСТИТУТА ОТВЕТСТВЕННОСТИ НЕСОВЕРШЕННОЛЕТНИХ НЕ ДОСТИГШИХ ВОЗРАСТА УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ

### Р Е З Ю М Е

**Цель исследования** – выявление предложений по принятию профилактических мер в сфере устранения правонарушений, совершаемых несовершеннолетними, не достигшими возраста уголовной ответственности.

**Методология исследования** – при изучении происхождения ответственности несовершеннолетних, не достигших возраста уголовной ответственности, изучается и анализируется влияние уровня их морально-психологического развития на их поведение.

**Практическаяая значимость исследования** – принятие необходимых мер по выявлению и предотвращению случаев вовлечения несовершеннолетних, не достигших возраста уголовной ответственности в преступную деятельность.

**Результаты исследования** – развитие профилактики правонарушений, совершаемых несовершеннолетними, не достигшими возраста уголовной ответственности.

**Оригинальность и научная новизна исследований** – в части определения генезиса возникновения ответственности несовершеннолетних, не достигших возраста уголовной ответственности, исследуется степень осознания этими лицами своих действий при определении их ответственности.

**Ключевые слова:** преступление, генезис, вина, мотив, цель.

*Məqalə redaksiyaya daxil olmuşdur: 16.10.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 20.11.2024*
*Çapa qəbul olunmuşdur: 02.12.2024*

*Дата поступления статьи в редакцию: 16.10.2024*
*Отправлено на повторную обработку: 20.11.2024*
*Принято к печати: 02.12.2024*

*The date of the admission of the article to the editorial office: 16.10.2024*
*Send for reprocessing: 20.11.2024*
*Accepted for publication: 02.12.2024*

\